BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№4 Humanitar elmlər seriyası 2007*

# MİR CƏLALIN NƏSR ƏSƏRLƏRİNDƏ RİCƏTLƏR

**S.M.MƏRDANOVA**

***Bakı Dövlət Universiteti***

Buradakı iki məsələyə aydınlıq gətirmək lazımdır.

1.Bədii əsərdə ricət və lirik ricət. Bunlar arasında ciddi fərq qoymaq olmur. Hər ikisi bədii yaradıcılığa aiddir. «Ricət» termininin mənası bir qədər genişdir, «lirik ricət» isə nisbətən, bir qədər məhduddur. Ancaq bizə belə gəlir ki, söhbət bədii ədəbiyyatdan gedirsə, burada ricət əsərin ümumi axınından daha bədii olması ilə, yəni lirikliyi ilə fərqlənir, daha doğrusu, sözün geniş mənasında, lirik ricət ricətin bir forması (növü kimi) görünsə də bədii ədəbiyyatda onlar eyniləşir.

2. Nəsrdə ricət və ya lirik ricət, ilk baxışda belə görünə bilər ki, ədəbiyyatşünaslıqda belə vurğulanır ki, lirik ricət poetik əsərlərə, xüsusən süjetli poetik əsərlərə, poemalara xas olan keyfiyyətdir; ancaq bu keyfiyyətin nəsr əsərlərinə aid olub-olmamasından o qədər söhbət açılmasa da, onu inkar edənlər də yoxdur. Bir sıra hallarda isə nəsr əsərlərində ümumən ricətdən, hərdən də lirik ricətdən danışırlar. Bu haqda bizim «XX əsr Azərbaycan poemalarında lirik ricətlər» kitabımıza (B., 2005, s.74-81) baxmaq olar.

Mir Cəlalın nəsr əsərləri də bu cəhətdən müəyyən material verir. Tədqiqatçılar Mir Cəlalın əsərlərinin dilinin sadə, aydın və oxunaqlı olmasını qeyd etməklə bərabər, bu dilin əsl obrazlı bədii dil olmasını, bədii ifadə vasitələri ilə zənginliyini də qeyd etmişlər. Bu bədiilik fonunda ədibin ricətlərdən istifadəsi də müəyyən yer tutur.

Yazıçının «Yolumuz hayanadır» romanının işıqlı, ancaq talesiz surətlərindən olan Əntiqənin şəhərə, Bakıya aparılacağı xəbəri onun uşaq qəlbini pərvazlandırır, uşaq çox sevindiyindən yata bilmir. Mir Cəlal Əntiqənin düşüncələrini verir və yazır:

«Əntiqə o günü heç bir zaman unutmaz. «Oxuyan» maşının səsi indi də qulağında cingildəyir. Onun sözləri də dilinin əzbəridir. O, maşında necə mahnı, ya necə qoşma eşitmişdi, hamısı yadındadır!...

Bakıya getmək xəbərini eşidəndə sevinmiş, gecə səhərəcən yatmamışdı. Güman edirdi ki, o da skamyada oturub əlinə qələm alacaq, kitab oxuyacaq, şərqi deyəcək, cərgəyə düzüləcəkdi. Onu da mirzələr dindirəcək, öyrədəcəklər. Onun da məktəb yoldaşları, onun da deyib-gülən günləri olacaqdır. Görəsən olacaqdımı?»

Son cümlə («Görəsən olacaqdımı?») Əntiqənin düşüncələrinə müəllifin əlavəsidir. Bu cümlə Əntiqənin işıqlı düşüncələrini, arzularını sual altında qoyur. Elə bu anda ədib hekayədən ayrılır, lirik ricət edir. Bu ricət uşaqlığa müraciətdir və çox poetikdir:

«Uşaqlıq! Nə şirin, nə təmiz, nə gözəl aləmsən!

İnsanlar sənin səmimi aləmindən uzaqlaşmasa, sənə ancaq kamillik gətirib artırsa, dünyada nə xoşbəxtlik olardı.... Uşaqlıq dövrü! Hər kəsin ömründə ən təmiz, ən qayğısız aləm sən deyilsənmi?

Nə gözəldir uşaqlıq əyyamı!

Uşaqlıq həyatı!

Ətbala quş qanadlar altında pərvəriş tapan kimi, sən də isti ana qucağına sığınır, bütün dünyanın səadətini bu doğma yurdda tapırsan. Sən burada hər cür naz-nəvaziş, şıltaq və əyləncələrlə zənginsən. Burada sən məğrur, tox, güclü və yüksəksən! Burada kimsəyə boyun əyən deyilsən. Ananın qucağında isindikcə, mehriban əlləriylə tumarlandıqca, doğma südü ilə bəsləndikcə, nəfəsini duyduqca heç bir şey sənin üçün qorxulu deyil. Göylərin də, yerlərin də sultanı sənsən!

Sən istəyəndə soyuq olur, sən istəyəndə isti olur, sən istəyəndə işıq yanır, sən istəməyəndə sönür. Sən istəyəndə susur, istəməyəndə dillənirlər. Hər şey sənin hüdudsuz körpəlik hakimiyyətinə tabedir!»

Ədibin «Yolumuz hayanadır» romanının «Ədalət məhkəməsi» adlı səkkizinci fəsli H.A.Krılovdan gətirilən bir epiqrafdan sonra belə bir cümlə ilə başlanır: «Dünyada hər kəs üçün bu addan təmiz, mehriban, müqəddəs, doğma nə var: ana!». Diqqət edilsə, mahiyyətinə görə, bu, təsvir mətninə daxil deyil, bir qədər lirik çalarlıdır. Ancaq başqa tərəfdən baxanda, bir başlanğıc kimi, bu cümlə təsvir mətninə başlanğıcdır, yəni, elə bil ki, start cümləsidir. Lakin bunun aşağıda verəciyimiz ricətə də meyli var:

«Ana! Sənin tükənməz əməyin, oxşayıcı şəfqətin, bəsləyici məhəbbətin, qəlb ülviyyətin kimə məlum deyil! Dünyada elə bir insan varmı ki, sənin həyat verən qayğı və şəfqətlərində isinməsin, doğma qucağına sığınmasın! Bizim ilk fəryadlarımızı eşitməkdən yorulmayan sənin qulaqların, ilk arzularımızı ödəməkdən zövq alan sənin ürəyin, ilk yatağımız, ocağımız, yurd-yuvamız olan sənin munis, isti qucağın deyilmi?

Dünyada bizə heç bir şey əsirgəməyən, hər şeyi təmənnasız verən və iltifatı tükənməyən sən deyilsənmi? Sənin lütfün, məhəbbətin tükənməz dənizdir ki, bir damlası, tək bircə damlası da ən qəddar insanların fəsadını söndürə bilər.

Ana! Sənin cəld və zirək əllərin indi də hər birimizin başında mehriban-mehriban gəzir, saçımızı tumarlayır, sifətimizi oxşayır. Belə bir qəlbin sahibi kürəyini ayaza, ömrünü məşəqqətə, həyatını iztirablara verib böyütdüyü balasını həmişə gümrah, bəxtiyar istər. Onun ən böyük səadəti, dünyadan umduğu da təkcə budur!

Heyhat! Qoca dünya, bəzən öz gərdişini sərt bir sükut, daş bir ürək, kor bir məntiq, daimi bir amansızlıqla keçirən qoca dünya kimsə ilə hesablaşmır. Zaman vəhşi bir təlatüm kimi bütün sahilləri aşıb hər şeyi ağzına alır, kükrəyən dalğaların səsindən, göylər də, fəryadları eşitməz olur.

Ən müdhiş fəlakətə düşəndə də ana qəlbi böyükdür!»[1]

Bu həyəcanlı sətirlər nələr demir! Ədibin ana haqqında bu hissi-psixoloji düşüncələri, daxili aləminin səsi, harayı hadisələrin gələcəyi haqqında oxucuya çox şeyi andırır. Düşüncəli, həssas oxucuya çox şey deyir. Mir Cəlal «Yolumuz hayanadır» romanının «Epiloq»unda köhnə dünya üzərində qələbə çalmış insanların ehtişamlı mitinqini, bu mitinq-

---

[1] Mir Cəlal. Seçilmiş əsərləri. Dörd cild. B., 1968, s.122-123.

də bir natiqin çıxışını verir. Bu çıxış o vaxta qədər səslənməyən, səslənməsi yasaq olan «yoldaşlar» sözü ilə bağlanır. Dünyanın işlərindən xəbərdar olmayan, daha doğrusu dolaşıq zamanda dünyanın işlərindən baş çıxara bilməyən adamlar üçün «yoldaşlar» yeni xəbər gətirmiş olur; «Natiqin ilk sözü («yoldaşlar» sözü nəzərdə tutulur – S.M.) izdiham üzərində böyük və şad bir xəbər kimi yayıldı... natiq, ilk sözündən sonra, sanki daha gərgin diqqət tələb edəcək bir an sükut etdi, qartal nəzəri ilə dəniz kimi dalğalanan izdihama baxdı». Burada Səməd Vurğunun «Zəncinin arzuları» poemasının qəhrəmanı yada düşür. Qara zəncinin tribunada səssiz dayanması yada düşür. Poema belə başlanır:

O, kürsüyə sinə gərdi. Danışmadı, susdu bir dəm,
Çatıb qara qaşlarını, fikrə getdi o bir anlıq.

S.Vurğun bu görünüşün mənasını açır, ricətlə onu mənalandırır:

Bəzən dilsiz bir vüqarla qılınc çəkir qəhrəmanlıq,
Qarşısında boyun büküb səcdə qılır bütün aləm.

Mir Cəlal müəllimin də qəhrəmanı kürsüdə bir an susur və bu susmağı ilə də çox demiş olur. Ədib ricətlə bu sükutun mənasını açır:

«Bu sükut ani idi, lakin çox mənalı idi. Bu sükutu əsrlər qədər zəngin bir aləmdən, tarixlərdə çox nadir baş verən cahanşümul bir hadisədən xəbər verirdi.

Bu sükut əsrlər boyu davam edən zülm və zəncir dünyasının sonuna qoyulmuş ağır bir nöqtə idi. Nöqtəni tarix yazanlar, adətən, qələm ilə qoyarlar. Natiq isə bu nöqtənin qələm ilə yox, qılınc ilə qoyulduğunu və həmişəlik olaraq qoyulduğunu hiss etdirirdi».

Yazıçının «Ərik ağacı» hekayəsində də bir kiçik və mənalı ricəti var:

«İnsan xoş gününün qədrini təhlükə yarananda bilər. Həmişə adi saydığımız məktəb, həyət, uşaqlar, müəllim yoldaşlar, həmin bu Nəbi dayı indi mənim gözümdə daha da böyümüş, daha da əziz olmuşdu. Sanki dinc və xoşbəxt məktəb həyatını, uşaq oxutmaq kimi bəxtiyar bir peşəni tərk etməli olacağımı dərk etdiyim üçün hər şey gözümdə ayrı cür olmuşdu».

Bu ricətlər Mir Cəlalın əsərlərinin onsuz da gözəl bədii dilinə, bu dilin şeiriyyətinin vüsətini daha artırır. Süleyman Rüstəmin Mir Cəlala müraciətlə dediyi «nəsrin elə şeir kimidir» sözləri ədibin nəsr dilini yaxşı səciyyələndirir. Doğrudan da, Mir Cəlalın nəsr dilində bir lakoniklik, bir axıcılıq, bir poetik axar var.

Ədibin «Bir gəncin manifesti» romanında klassik bir ricət var. Bu ricət nəsrlə deyilmiş poetik ricətdir, yəni lirik ricətdir.

Mərdan, qardaşının – Baharın faciəli ölümünü biləndən sonra nə edəcəyini bilmir. Daxili bir həyəcan verir. Mir Cəlal o həyəcanı belə ifadə edir:

«Əlində qələmi olsa, oturub yazardı. Səssiz bir çöl guşəsi olsa, dillənərdi. Bayatı çəkərdi. Əlini ağrıyan ürəyinə qoydu, üzünü şəhərə doğru gedən üfüqlərə tutdu. Sükut aləmində danışdı». Bəli, sükut aləmində. Mərdan qışqırsaydı, haray salsaydı, bəlkə də, demək istədiklərini deyə bilməzdi. Qəlbini sökən ağrıları-acıları deyə bilməzdi, buna Mərdanın səsli nitqinin gücü çatmazdı. Burada Mərdan başqası üçün yox, özü üçün danışmalı idi; bütün varlığını toplamalı, hissini, duyğusunu, həyə-

canlarını bir yerə qatıb daxili haray çəkməli idi». Bax bu haray ricətdir:

«Bahar, mələr quzum, sən indi haradasan? Qalx, qardaşım, buzlu torpaqların altında olsan da, ailəmizə bax! Məsum baxışına, talesiz həyatına, günahsız ölümünə and olsun ki, sən bütün arzularına layiq idin! Sən bir qarın çörək üçün səhərini çöllərdə açır, axşamını dağlarda qaraldırdın. Lakin qapılarda sənin üzünə gülən, qabağına süfrə açan, bir mehriban dindirən yox idi... Çünki sən kasıb idin.

Bahar, sən hardasan, bir qalx, kəndimizdə yoxsul uşaqları üçün düzələn məktəbin bağlara, bağçalara açılan pəncərələrinə bax! Quşlar kimi səs-səsə verən yoldaşlarının şirin nəğməsini eşit! Bu xoşbəxt uşaqların üzünə doğan ağ günlər sənin də haqqın, payın idi. Həsrətilə öldüyün məktəb, dərs yoldaşları, yeni mahnılar sənə ana südü kimi halal idi. İgid oğulların qanı bahasına aldığımız azadlığa and olsun ki, sən bu günə, bu ağ günə layiq idin. Bu təzə, azad dünyamızın bütün nemətləri sənin haqqın idi. Sən bu bayram günlərimizi şərbət kimi içməli idin. Yazıq uşaq! Sənə keçmiş qara günlərin zəhər piyaləsi qismət oldu.

Bahar, yetim qardaşım, sən haradasan, qalx, anana təsəlli ver. Mən də səsimi yazıq anamın səsinə qatıb ağlasam yeri var! Lakin mən daha ağlamayacağam. Mənə yaraşmaz. Sənin təmiz adını könlümdə bir oğul kimi bəsləyəcəyəm. Yeni nəslə, gənclərə və gəncliyə həmişə xidmət edəcəyəm. Ürəyimə dağ çəkən qüssələrini isə polad kimi bir nifrət zərbəsi edib düşmənlərin başına çalacağam.

Tifil qardaşım, and olsun müsibətlərinə ki, mən sənin qanını yerdə qoymayacağam. Sənin əvəzində kəndimizin, vətənimizin minlərlə uşaqlarının böyüyüb pərvaz olmasına səy edəcəyəm. Onların hər birinin üzündə səni görəcəyəm.

Bahar mən bu nisgilə necə dözüm?! Surenlə qardaşlıq kağızlarınızı son nəfəsinədək qorumuşdun. Həmin qardaşlıq qalib gəldiyi bir gündə sən bizim aramızda olmalı idin. Sən qönçə kimi açılıb gülməli idin. Sənin o kiçik əlini evimizə gələn komsomolçu qardaşlarım, əziz qonaqlarım hərarətlə sıxmalı idilər.

Bahar, ay Bahar! Ömrümüzün yazı açılmışdır. Həyat gülür, təbiət gülür. Düz-dünya bəzənib. Lakin sənin acı xatirən lalənin qəlbindəki dağ kimi ürəyimi yandırır.

Sən bu günləri görə bilmədin. Sən heç bir zaman səs-səsə verib əldə kitab, dildə mahnı məktəbə gedən yoldaşlarına qoşulmayacaqsan. Heç bir zaman saldığımız yeni bağda gəzməyəcəksən, mahnı oxumayacaqsan... Heç bir zaman boynuna pioner qalstuku taxmayacaqsan! Əlinə qələm almayacaq, qarşına kitab açmayacaqsan!.. Ah, mərhum, məzlum körpəm!...»

Bu, Azərbaycan nəsrində ən güclü ricətlərdən biridir.

### QEYDLƏR

**1.** Mir Cəlal. Seçilmiş əsərləri. 2 cilddə. I cild. Bakı, Azərnəşr, 1986.

**2.** Mir Cəlal. Seçilmiş əsərləri. 4 cilddə. II cild. Bakı, «Gənclik», nəşr., 1961.

**3.** Mir Cəlal. Seçilmiş əsərləri. 4 cilddə. III cild. Bakı, «Gənclik», nəşr., 1968.

**4.** Mir Cəlal. Seçilmiş əsərləri. 4 cilddə. IV cild. Bakı, «Gənclik», nəşr., 1968.

**5.** Mərdanova S. XX əsr Azərbaycan poemalarında lirik ricətlər. «Çaşıoğlu» nəşr., 2005.

**ОТСТУПЛЕНИЯ В ПРОЗАИЧЕСКИХ ПРОИЗВЕДЕНИЯХ МИР ДЖАЛАЛА**

**С.М.МАРДАНОВА**

**РЕЗЮМЕ**

Наличия отступления или лирического отступления в художественной прозе является спорным вопросом. В данной статье автор предпринял попытку внести ясность в этот вопрос, затронул тему отступлений в прозаических произведениях Мир Джалала. Язык этих произведений отличается простотой и ясностью. В произведениях Мир Джалала имеются оригинальные по смыслу и средством художественного отображения отступления. Эти отступления усиливают художественность его произведений, облегчают их прочтение.

**THE DEVIATION IN PROSAIC WORKS OF M.JALAL**

**S.M.MARDANOVA**

**SUMMARY**

The presence of deviation or the lyrical deviation in literary prose is a disputable problem. Here outher is trying to explain this problem and is dealing with the deviation in prosaic of M.Jalal. In the works of M.Jalal one can find originally on contents examples being vivid examples of the deviation. And these examples of deviation always strengthen the artistry of his works and they mostly facilitate their reading.